# Ağrılı zamandan doğulan "Duyğu yarpaqları"

**İlham Məmmədli**
*filologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** m_ilham63@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. F.A.Vəlixanlı,
filol.ü.f.d., dos. S.H. Quliyeva

**Açar sözlər:** azad söz, rübai, bolşevik diktaturası, repressiya, siyasi sistem, ədəbi proses

**Ключевые слово:** свобода слова, рубаи, большевистская диктатура, репрессия, политическая система, литературный процесс

**Key words:** free, rubai, Bolshevik dictatorship, repression, political system, literary proses

XX əsr Azərbaycan poeziyasının ünlü simalarından olan Mikayıl Müşfiq qısa həyatı və yaradıcılığı dövründə zəngin bir ədəbi irs yadigar qoymuşdur. Müşfiqin ədəbiyyata gəlişi olduqca təzadlı bir dövrə təsadüf edirdi. Azərbaycan XI Qızıl Ordu tərəfindən işğal edilib Xalq Cümhuriyyəti devrildikdən sonra ölkədə bolşevik diktaturası yaradılmışdı. Yeni hökumətin ilk addımlarından biri ədəbiyyatı və sənəti tam partiyalı bir quruma çevirməkdən ibarət oldu. Sistemin ideologiyasından kənar istənilən azad fikir söyləmək düşmən təbliğatı elan edilirdi və müəllifini ən ağır cəza gözləyirdi.

Belə çətin və ağır illərdə ədəbiyyatla məşğul olmağın özü qələm adamından güclü istedaddan da öncə dövrün təzadlı ictimai-siyasi proseslərindən düzgün baş çıxarmaq bacarığı tələb edirdi. Böyük poetik istedada, güclü ilhama malik gənc Müşfiqin sinəsi yazıb-yaratmaq eşqi ilə aşıb-daşırdı. Lakin dövrün tələbləri və bədii yaradıcılığın əks olunduğu ədəbi müstəvi onun ilham köhləninin cövlan etməsi baxımından olduqca dar və təhlükəliydi.

Dünyada "haqq-ədalət" nizamı və "insanların bərabər yaşadığı" yeni ictimai-siyasi sistem qurduğunu elan etmiş bolşevik diktaturası bu sistemin ideoloji dayağı olacaq "Yeni ədəbiyyatı və mətbuat"ı yaratmağı əsas siyasi məqsəd kimi gündəmə gətirmişdi. Bunun ardınca da Rusiyadan başlamış köhnə qələm adamlarının və ziyalıların "burjua tör-töküntüsü" adıyla çıxdaş edilməsinin əks-sədası Azərbaycan kimi milli ucqarlarda daha ucadan eşidilməkdəydi. Bolşevik hakimiyyətinin yazıçıdan əsas tələbi təbii istedaddan öncə sinfi sədaqət, hakim ideologiyanın pafoslu və ritorik təbliğatı idi.

"Proletar ədəbiyyatı" çətiri altında öz ideoloji təmsilçilərini yetişdirməyi məqsəd olaraq qarşıya qoymuş siyasi sistem qələm adamını hakim rejimin kor-koranə bir təbliğatçısına çevirmək istəyirdi. Sosialist realizmi metodunu ədəbiyyatın əsas prinsipi elan edən bolşevik hakimiyyəti söz sənətinə ideoloji tribuna kimi baxdığından yazıçı ilhamını və dünyabaxışını dar bir çərçivədə buxovlamağa çalışırdı. Belə qarışıq illərdə hələ çox gənc yaşlarından poeziya ulduzu sürətlə parlayan, bir qədər də ötkəm xasiyyətli Müşfiqin qaragüruhçuların və sistem "xəbərçilərinin" gözlərindən yayınıb öz sakit sənətkar ömrünü yaşaya biləcəyi mümkünsüz idi. Şairin böyük istedadı və olduqca çılğın xarakteri ildən-ilə onun sistem ovçularının tələsinə düşməsini sürətləndirdi. Məhz şəxsiyyətindəki bu amillər gənc və istedadlı şairi 30-cu illərin "qırmızı terror"unun qurbanına çevirdi.

Sovet hakimiyyəti imperiya boyunca möhkəmləndikcə Moskva "siniflər mübarizəsi" adı altında milyonlarla insanı qırmızı terrora məruz qoyaraq gözüqıpıq bir toplum formalaşdırırdı.

Mətbuatda saxta “daxili düşmən obrazı” yaratmaqla ölkədə ümidsizlik, qorxu və xof mühiti yaratmışdı. Artıq 30-cu illərin ortalarından “qırmızı terror” sürətlə metastaz verərək bütün ölkəni ağuşuna almışdı. Mənhus 37-ci ildə ölüm sırası ziyalılara, qələm adamlarına da gəlib çatdı. Müşfiq başının üstünü almış təhlükənin onu addım-addım izlədiyini yaxşı görürdü və bu dəhşətin burulğanından qurtulmaq üçün ruhi sarsıntılar içərisində vurnuxurdu. Şairin dördlük şeir formasının rübai janrında qələmə aldığı son mətbu şeiri “Duyğu yarpaqları” da məhz o ağır illərin acı ovqatından doğmuşdu.

“Müşfiqin fərdi yaradıcılıq manerasının coşqun bir “çağlayan”a çevrildiyi 1935-37-ci illərdə onun sənətinin xalq təfəkkürü ilə, xalq şeiri ilə yanaşı klassik poetik ənənələrdən də qidalandığını obrazlı təcəssümdə aydın görmək olur” (səh. 134).

Şair ətrafında repressiyanın qorxunc kabusunun dolaşdığını, təhlükə halqasının gündən-günə sürətlə daraldığını görürdü. Özünü bu bəladan qurtarmağın yeganə yolunu sadəlövhcəsinə sistemi vəsf etməkdə görürdü. Sovet hakimiyyətinin insanlara azad və bərabər bir dünya bəxş etdiyini, özünün də “insanı və sənəti qiymətləndirən yaxşı adamların sırasında” olduğunu sanki partiya bosslarının diqqətinə çatdırmaq üçün haray çəkirdi:

Mən bir yüksəlişin sevdasındayam,
Siniflər döyüşü dünyasındayam.
İnsanı, zəhməti qiymətləndirən
Yaxşı adamların sırasındayam (5, 133).

Müşfiq saxta bir donosla neçə-neçə günahsız insanın gedər-gəlməzə göndərildiyini, bir gecədə bir ailənin, bütöv bir nəslin məhv edildiyini görürdü və bu amansızlıqlardan daxilən sarsılırdı. O, sistem başbilənlərinə “donosbazların” yaratdıqları rəylərin saxta, özünün günahsız, hələ çox gənc olduğunu, poeziya kəhkaşanında “hilalının” yenicə bədirləndiyini, ədəbiyyat ümmanında “səndəlinin” yelkəninin təzə-təzə açıldığını bəyan edərək “qara yellərin” yolundan çəkilməsini hayqırırdı:

Mən gəncəm, bilirəm istiqbalım var,
Hələ bədr olmamış bir hilalım var,
Yelkənim açılır, qara yel, əsmə!
Mənim bu dəryada bir sandalım var (5.133).

Müşfiq görürdü ki, qırmızı diktatura “siniflər mübarizəsi” adı altında özünə azacıq yad görünən, gözünə yaxşı dəyməyən minlərlə günahsız insanın həyatını bir göz qırpımında qaraldır. Belə çarpaşıq və dolaşıq bir dövrdə daxili sarsıntı yaşayan gənc Müşfiq özünün də yeni hökumətin “bir əsgəri” oduğunu və hər cür sinif qovğasında səfərbər olub onlarla bir sırada dayandığını xatırladırdı. Dövrün ironiyası onda idi ki, sistem hər gün ölüm mələyinin bir addımlığında boy göstərdiyi insanlardan “xoşbəxt olduqlarını” etiraf etməyi, həm də bu “xoşbəxtliyi” şüar kimi səsləndirməyi tələb edirdi. Müşfiq də “belə bir dövrün” şairi olmağın “xoşbəxtliyindən” danışırdı:

Sinif qovğasına səfərbərəm mən,
Əsgərlər içində bir əsgərəm mən.
Bu dövrün şairi olmaqla ey dost,
Bir düşün, nə qədər bəxtəvərəm mən! (5, 133).

Lenin və onun bolşevik bandası sosialist inqilabını bütün dünyaboyu yayacaqları şüarı altında Avropanın və digər qitələrin də yuxularını qaçırmış, bir çox ölkələrdə öz ardıcıllarını yetişdirməyi bir vəzifə olaraq qarşıya qoymuşdular. Bu həm də o illər idi ki, İtaliyada və Almaniyada bolşevizm kimi daha bir qorxulu siyasi millətçi cərəyan – faşizm öz sərhədlərini sürətlə genişləndirir, insanlığı təhdid edirdi. Moskva Hitler faşizmi ilə dünyanı bölüşdürməklə bağlı gizlin separatçı danışıqlara getsə də, bir gün bu bəlanın onun özünü də yaxacağını yaxşı dərk edir, faşizmi düşmən elan edərək xalqda bu qüvvəyə qarşı nifrət ruhu aşılayırdı.

Uzaq üfüqlərdən yenə səs gəlir,
Böyük inqilaba dadirəs gəlir.
Təslim ol deyirəm, faşist ordusu!
Üstünə dağ kimi Dolores gəlir (5, 133).

Gənc Müşfiq içinə düşdüyü atəşin nə qədər qorxunc və sərhəd tanımadığını bir şair fəhmi ilə duyur, bu "azadlıq ordusu"nun artıq Avropadan Afrikaya yayıldığını görür və bu qarşısıalınmaz qüvvəni sanki sözün qüdrəti ilə tərbiyə etməyin mümkünlüyünə özünü inandırırdı:

Canlanır gözümdə günəş ordusu,
Afrika arslanı – həbəş ordusu,
Dağlarmı boylanır qaz dumanından,
Yoxsa azadlığın sərkəş yavrusu?! (5, 133).

Bolşevik diktaturası özünü məzlum sinfin və insanların hakimiyyəti olduğunu sözdə elan etsə də real əməldə insan və onun şəxsiyyəti rejim tərəfindən dəyərsiz bir əşya kimi heçliyə sürüklənirdi. Müşfiq min illər boyu insanlığın yaşadığı acı məhrumiyyətləri, qanlı tiranların insanlara yaşatdığı bəlaları tarixdən yaxşı bildiyindən həssas bir şair qəlbi ilə buna üsyan edir, bir daha belə acı dramların yaşanmamasını arzulayırdı.

Hər yetən at sürdü meydan başında,
Min oyun oynatdı dövran başında.
Gurlamaz bir daha bizim ölkədə
İnsan ildırımı insan başında! (5, 135).

Sovet sistemi insanlar arasında sinfi bərabərsizliyi ləğv etdiyini bəyan etmişdi və etiraf etmək lazımdır ki, bu sistemin müsbət tərəfləri də az deyildi. Savadsızlığın ləğvi istiqamətində ciddi islahatlar həyata keçirən bolşevik hakimiyyəti insanlarda şəxsi mülkiyyətə, var-dövlət hərisliyinə inzibati yolla ciddi sədd qoymuşdu və bu da cəmiyyətdə sürətli sinfi təbəqələşmənin qarşısını müəyyən qədər alırdı. Müşfiq bu müsbət amilləri bir sənətkar olaraq dəyərləndirir və bunları görmək istəməyənləri tənqid atəşinə tuturdu:

Əl çək bir dəfə də öz acığından!
Üz çevir gördüyün murdar yığından!
Bir az da danışsaq heç yaman olmaz,
Bizim dövrümüzün yaxşılığından (5, 138).

Sistem öz üstünlüyünü göstərmək üçün hər cür təbliğat vasitəsindən istifadə edirdi. Bu sırada yeni quruluşun əməkçi qəhrəmanlarının yetişdirilməsi və bunların bütün ölkədə təbliği xüsusi yer tuturdu. Bu qəhrəmanların yaradılmasında sistemin mahiyyətinə uyğun müəyyən "pripiskalar" olsa da, o illərdə öz əməyi ilə ucalan əsil zəhmət adamları da az deyildi. "Staxanovçular hərəkatı" adı altında başladılan hərəkatın Azərbaycanda da tanınmış qəhrəmanları yetişmişdi. Bunların ən parlaq nümayəndələrindən biri pambıq ustası Bəsti Bağırova idi. Şair "Duyğu yarpaqlarında", "ordenli Bəsti"nin alın tərindən ilham almaqla yanaşı, açıq mətnlə bəzi bədxahların müəyyən yerlərə xəbər daşıdıqlarına da işarə vururdu.

Qardaşım, bunu da yaz dəftərinə,
Get mənim dilimdən çatdır yerinə:
Ölsün bu dünyada xain çıxanlar
Ordenli Bəstinin alın tərinə! (5, 138).

"Duyğu yarpaqları"nda ideoloji-siyasi baxışların təbliğinin üstünlüyünə, bir qələm adamının öz günahsızlığını sübut etmək üçün müəyyən ədəbi-bədii priyomlardan bacardığı qədər istifadə etməsinə rəğmən, bu rübailər həm də istedadlı bir şairin böyük poetik ustalıqla qələmə aldığı yüksək poeziya nümunəsi idi. Klassik yazılı ədəbiyyata xas olan rübai janrının Müşfiq qələmində yeni forma və məzmunda təzahürü, eyni zamanda ictimai-siyasi proseslərin bədii ədəbiyyatda inikası idı. "Duyğu yarpaqları"ında Mikayıl Müşfiq o zamanlar şairliyi asan dolanışıq mənbəyi sayanlara, ilhamsız söz adamlarına da ciddi şəkildə öz yerlərini göstərirdi:

Şairə ilhamdan maya gərəkdir!
Anasız cocuğa dayə gərəkdir!
Şairəm söyləyir yerindən duran,
Adamın üzündə həya gərəkdir! (5, 138).

"Böyük hərflə yazılan həyat, azad insan, həyatı gözəlləşdirən qüdrətli və müdrik insan şairin yalnız ilham mənbəyi deyildi, bəlkə onun bütün poeziyasının məzmunu idi" (1).

Müşfiq ruhən azad sənətkar olduğundan söz adamı üçün azadlığın nə qədər böyük nemət, əvəzsiz sərvət olduğunu daxili mənəvi ağrıyla yaşayırdı. Şair xəyalında görmək istədiyi, ürəyində arzuladığı azad dünyanın özünün yaşadığı sosialist cəmiyyətində bərqərar olduğunu yazmaqla onun bütün dünyada qalib gəlməsini istəyirdi:

Hər tərəfdə quran toy-büsat mənəm,
Ulduzlarla edən ixtilat mənəm.
Mənim azadlığım qucağa sığmaz,
Yer mənəm, göy mənəm, kainat mənəm! (5, 135).

Müşfiqin şəxsi faciəsi, tarixin acı ironiyası idi ki, bu misraları çap etdirdiyindən cəmi bir neçə ay sonra gənc və istedadlı şairin azadlığı əlindən alınaraq özü qırmızı terrorun qurbanına çevrildi. Şahidsiz və məhkəməsiz mənhus "troyka" tərəfindən edam cəzasına məhkum olunmuş şairin belə bir vəhşiliklə öldürülməsi azad sözün edamı demək idi. Onun adı və yaradıcılığı uzun müddət qadağan olunsa da tarix bir həqiqəti növbəti dəfə sübut etdi ki, əsil sənəti və azad sözü heç vaxt girov saxlamaq mümkün deyil.

**Məqalənin aktuallığı.** Postsovet dövrü ədəbiyyatının öyrənilməsi yaxın tariximizi düzgün

dərk etmək baxımından əhəmiyyətlidir. Məqalədə bu məsələlər əsas müzakirə mövzusudur.

**Məqalənin elmi yeniliyi.** Mikayıl Müşfiq irsinin yeni baxışlar müstəvisində araşdırılması şairin bədii irsinin daha düzgün dərk edilməsinə imkan verir. Məqalənin elmi yeniliyi də bu məqamlarla bağlıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə Mikayıl Müşfiq irsini araşdıranlar və postsovet dövrü ədəbiyyatını öyrənənlər üçün maraqlı ola bilər.

## Ədəbiyyat

1. Dadaşzadə M. "Uç romantikam". "Kommunist" qəz., 1969, 24 yanvar.
2. İbrahimov M. Şair dostum // Azərbaycan, 1959, № 4.
3. Hüseynoğlu G. M.Müşfiq poeziyasında həyat həqiqəti və romantika. Mikayıl Müşfiq. Həyat sevgisi. Bakı: Yazıçı, 1988.
4. Quliyeva S. Müşfiqin sənət dünyası. Bakı: Yazıçı, 1988.
5. Mikayıl Müşfiq. Həyat sevgisi. Bakı: Yazıçı, 1988.

**И. Мамедли**

## «Листья чувств», рожденные во время душевной боли

## Резюме

В статье говорится о стихотворениях известного азербайджанского поэта Микаила Мушфига, написанных в форме четверостишия. К исследованию привлечены конкретные стихи, изданные под названием «Листья чувств». Анализируется влияние на художественную литературу общественно-политической среды. В данной статье высоко оцениваются художественное мастерство поэта и его поэтические возможности, вложенные в эти четверостишия.

**I. Mammadli**

## "The leaves of feelinq, feelinq", of which comes from the aching time

## Summary

The article deals with the quatrains written by Mikayil Mushfig, an outstanding Azerbaijani an poet. The social and political environment`s influence on belles letters is dealt with in his work titled "The leaves of feeling". The artistic features, the poetic potential of the poet`s quatrains are valued.

**Redaksiyaya daxil olub:** 12.02.2019